


Cənubi Afrikada silahlı dəstə üzvləri zirehli maşındakı pul kassalarını sındıranda pullar ətrafa yayılıb.

**Dalga tv□** moderator.az-a istinadən bildirir ki, Cənubi Afrikada 10 silahlı dəstə üzvü pul daşıyan zirehli maşınları izləmək üçün yola çıxıb. Limpopo yolunda zirehli maşının təkərlərini bir-bir partladaraq dayandıran təcavüzkarlar sürücünü maşından çıxararaq yerdə sürüyüb.

Bununla da kifayətlənməyən silahlı dəstə üzvləri zirehli maşındakı pul kassalarını partladıblar. Partlayışın şiddətindən bəzi parçalar ağac budaqlarına çırpılıarkən göydən də pul yağıb.

Təxminən 2 milyon dolları oğurlayan dəstə üzvləri polis tərəfindən ələ keçirilib.